## "ŞƏRQ QAPISI" QƏZETİ – 100

# MÜSTƏQİLLİK DÖVRÜ NAXÇIVAN ƏDƏBİ MÜHİTİNİN İNKİŞAFINDA "ŞƏRQ QAPISI" QƏZETİNİN ROLU

Azərbaycan müstəqilliyinə qovuşduğu illərdə "Şərq qapısı" qəzeti 70 illik publisistika təcrübəsinə malik olan və bu sahədə Azərbaycanın aparıcı mətbuat orqanlarından biri kimi artıq püxtələşən, bütöv Azərbaycanın həyatının bir çox aparıcı sahələrini əhatə etməyi bacaran, hətta Azərbaycanla Türkiyə və Cənubi Azərbaycan arasında mənəvi körpü rolunu oynayan bir qocaman qəzet funksiyasını şərəflə yerinə yetirmişdir. Ümummilli lider Heydər Əliyevin doğma vətəni qanlı imperiyanın caynaqlarından xilas etmək uğrunda apardığı mübarizə, çox böyük uzaqgörənliklə həyata keçirdiyi tədbirlər, misilsiz cəsarət nümayiş etdirən çıxışları məhz bu qəzetin səhifələrindən bütün Azərbaycan xalqına çatdırılmışdır. "Şərq qapısı" qəzeti Azərbaycan tarixi ilə yanaşı, Azərbaycanın zəngin və qədim ənənələrə malik şifahi və yazılı ədəbiyyatının, ədəbi əlaqələrinin, ədəbi tənqidinin, bədii publisistikasının da salnaməsi rolunu həyata keçirmişdir. Dünya, Türk, Cənubi Azərbaycan və Azərbaycan ədəbiyyatının klassiklərinin yubiley illəri ilə bağlı müvafiq fərman və sərəncamlarla əlaqədar istər publisistik məqalələrə yer verilməsi, istərsə də müxtəlif dövlət və özəl müəssisələr tərəfindən həyata keçirilən tədbirlərin işıqlandırılması mühüm əhəmiyyətə malikdir. 1991-si il ərzində böyük humanist şair Nizami Gəncəvinin 850 illik yubileyi ilə əlaqədar olaraq qələmə alınmış "Böyük alim, ölməz şair", "Nizami yaradıcılığından istifadə" kimi məqalələrə, "Böyük şair yad edilir", "Minskdə Nizami yubileyi" və s. yazılarda elmi konfranslar, sərgilər, ədəbi-bədii gecələr haqqında yazılara yer verilmişdir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən Mirzə İbrahimovun 80 illiyi ilə bağlı keçirilmiş yubiley gecəsindən bəhs edən "Dövrün yazıçısı", "Azərbaycanın istiqlal şairi" (Əhməd Cavad-100), "Şəhriyar və onun qohumları ilə tanışlıq" (M.Şəhriyar-90), "Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan!" adlı yazıda böyük şairin 90 illik yubileyi ilə bağlı Naxçıvanda keçirilmiş təntənəli yubiley tədbiri, Təbrizin "Səhənd" teatrının ifasında "Heydərbabaya salam" poemasının motivləri əsasında hazırlanmış tamaşanın yüksək səviyyədə təqdimi haqqında oxucular məlumatlandırılmışdır. Aşıq Ələsgər, C.Cabbarlı, M.Nəsirli, Kəmalənin, Azərbaycan mətbuatının, "Molla Nəsrəddin" jurnalının, "Şərq qapısı" qəzetinin yubileyləri ilə əlaqədar keçirilmiş tədbirlərin işıqlandırılması, bədii əsərlərə yer verilməsi, "Molla Nəsrəddin" jurnalının felyetonlarından nümunələrə, Cəfər Kərimov və başqalarının yaradıcılığından mollanəsrəddinsayağı satirik-publisistik janrlara yer verilməsi, Naxçıvan Dövlət Universitetinin başlatdığı "Mirzə Cəlil günləri"nin proqramına uyğun tədbirlərin işıqlandırılması qəzetin səhifələrində ədəbi mühitin inkişafı, mətbuatın əsas vəzifələri və ədəbiyyatşünaslıq məsələlərinin daim diqqətdə saxlanıldığını təsdiqləyir. O cümlədən, naxçıvanlı ədəbiyyatşünas alimlərin – A.Zamanov, Ə.Şərif, Y.Axundlunun Azərbaycan elminə verdiyi töhfələrdən bəhs edən "Sonuncu məktub, yaxud həzin xatirələr", "Vətəndaş-alim", "Ziyalı ömrünün səhifələri" məqalələri yeni dövr ədəbiyyatşünaslarının öz sələflərinə olan ehtiramının bariz nümunəsidir.

Azərbaycan xalqını parçalanma və dövlətin məhvolma təhlükəsindən qurtaran müdrik, uzaqgörən siyasi xadim olan möhtərəm Heydər Əliyevə xalq məhəbbətini ifadə edən nümunələr müstəqillik dövrü Azərbaycan ədəbiyyatının əsas mövzularından olmuşdur. Ümummilli liderin anadan olmasının 75 illik yubileyindən başlayaraq bugünümüzə qədər bu mövzu Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılığından da qırmızı xətt kimi keçmişdir. Ulu öndərin Azərbaycana və dövlət rəhbərliyinə qayıtmasından bəhs edən H.Elsevərin "Xilaskar", H.Nehrəmlinin "Heydərim", M.Təmkinin "Vətən sənə güvənir" poemalarından parçalar, D.Dünyamalıyev, V.Məmmədov, Kəmalə, O.Ələsgərli, Y.Əliyev, F.Nağıyev, N.Bağırov, E.Qasımova və s.-nin şeirləri, D.Cəfərli, S.Yaqub, Ə.Sadiq, S.Yaqublunun kitabları müstəqil Azərbaycanın dünyamiqyaslı siyasi xadiminin öz doğma xalqı qarşısındakı misilsiz xidmətlərinin bədii salnaməsidir. Bundan başqa, Ə.Ülvinin "O yaşayır", İ.Yusifoğlunun "O, Heydər ömrüdü-sönməyəcəkdir...", "Xalqı bəlalardan qurtardın, baba", "Qurtuluş", M.Xanarazın "Heykəl", "Ziyarətə gəlmişəm", M.Təmkinin "Nə yaxşı sən varıydın", "Mənim ulu Heydərim", "Sənin qayıdışınla", A.Yadigarın "Fəxri xiyabanda düşüncələr", "Bir nurlu heykəl yarat", "Heydər zirvəsi", "Günəş kimi nurlusan", N.Hacılının "Bu insan", T.Qəbulun "Heydər Əliyevin xatirəsinə", Q.Qəribin "Heydər baba yolu", S.Nemətin "Heydərim!", İ.Fərəməzoğlunun "Dünya heyran qaldı bu böyüklüyə", E.Həbibin "Yolumuz Heydər yoludur", "Heydər Əliyev Günəş qədər həqiqətdir", "Dədə Heydərə", "Heydərnamə", X.Kərimlinin "Onu zaman doğmuşdu", V.Məmmədovun "Qayıtdın", "Qayıdış", Ə.Abbasovun "Ulu öndər Heydər Əliyevin abidəsi önündə", B.Təhməzin "Ölməyib, yaşayır Heydər əbədi", Ə.Muxtaroğlunun "Ağladı", S.Kərimlinin "Heydər babamız", R.Elçinin "Əbədiyyət simvolu", "Yer üzündə bənzərin yox", Ə.Azərin "Heydər yoluyla", F.Fərəcovun "Sən olmasaydın", E.Yurdoğlunun "Yolu var olanların özü daim var olur" və başqa nümunələr bu mövzuda qələmə alınmış, hər birində ümummilli lider Heydər Əliyevin fəaliyyətinin müxtəlif məqamları nəzmə çəkilmişdir. 2013-cü il 9 may tarixində dahi liderin 90 illik yubileyi münasibətilə qəzetdə dərc olunan şeir Heydər Əliyev böyüklüyünün bədii ifadəsinin ən gözəl nümunələrindəndir:

O siyasət memarı, dahilik simvoludur,
Bu gün getdiyimiz yol o dahinin yoludur.
Adının qabağında nə qədər təyin yazdır,
Onu olduğu kimi anlatmaq üçün azdır.
Yolu var olanların özü daim var olur,
Tarixlə addımlayır - əbədiyaşar olur.
Hər bir vətəndaş üçün qibləgahdır və pirdir-
O, Heydər Əliyevdir
Ümummilli liderdir.

"Şərq qapısı" qəzetində Azərbaycan və Naxçıvan ədəbi mühitinin müasir dövrünün nəsr sahəsinin ədəbi mənzərəsini B.İsgəndərli, A.Axundov, N.Babayevin hekayələri, H.Əsgərov, A.İmanlının yumoristik hekayələri, poeziya sahəsini "Poeziya", "Ədəbiyyat" səhifələrində, ""Şərq inciləri" təqdim edir" başlığı ilə E.Həbib, K.Ağayeva, Ə.Yusifli, İ.Səfərli, Z.Vüqar, F.Süleymanov, S.Zəngilanlı, X.Kərimli, F.Fərəcov, Ş.Zaman, İ.Fərəməzoğlu, S.Əsgərli, Q.Alışarlı, V.Qaraxan, M.Qasımzadə, F.Qəlbinur, N.Əlincə, V.Əsrar, S.Məmmədov, S.Nemət, H.Bağıroğlu, A.Aqil, M.Tahir, B.Təhməz, S.İsmayıl, Ə.-Muxtaroğlu, Ə.Babayev, Q.Qərib, E.Yurdoğlu, İ.-Qulubəyli, S.Əlincəli, S.Kərimli kimi nisbətən tanınmış imzaların müstəqil Azərbaycanı tərənnüm edən, ictimai-siyasi məzmunlu, o cümlədən, müstəqil dövlətimizin əsas atributlarından olan üçrəngli bayrağa ithaf olunan şeirləri, H.Elsevərin "Uşun Qoca oğlu Səgrək" boyunun motivləri əsasında yazdığı "İki qardaş", ümummilli liderin dövlət rəhbərliyinə qayıtmasından bəhs edən "Xilaskar", M.Təmkinin "Bütövlüyüm, birliyim – mənim müstəqilliyim" poemalarından parçalar, mənsur şeir (A.Qəhrəmanova), A.Yadigar, A.Babayev yaradıcılığından sonetlər, Z.Vedilinin sonetlər çələngi, B.İsgəndərlinin elegiyaları və s. janrlar təmsil etmişdir. Qəzetin həmçinin, "Mətbuatda yeni imza" sərlövhəsi ilə tanınmamış imzalara, müxtəlif orta məktəblərin müəllim və şagirdlərinin ictimai mövzulardakı şeirlərinə yer ayırması, o taylı-bu taylı şair və yazıçılarla təşkil olunmuş görüşlərin, ədəbi-bədii gecələrin işıqlandırılması, şairlərin qısa tərcümeyi-halları ilə birlikdə yaradıcılıqlarından nümunələrin oxuculara təqdim olunması, dünyasını dəyişmiş yazıçı və şairlər haqqında xatirələrə yer ayırması, "Heydər Əliyev siyasəti, Heydər Əliyev müdrikliyi", "Naxçıvan Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq uğrunda mübarizənin dayağıdır" yaradıcılıq, "Müstəqilliyimiz əbədidir" şeir müsabiqəsi ilə əlaqədar Z.Vüqar, H.Arzulu, M.Quliyev, M.Hüseynzadə, M.Təmkin, İ.Yusifoğlu, N.Əlincə, Z.Vedili və s. müəlliflərin bədii əsərlərinə yer ayırması, yaradıcılıq müsabiqələrinin yekunu, qaliblər haqqında xəbərlər verməsi ilə ədəbi mühiti daha da canlandırması, ictimai əhəmiyyətli mövzulara istiqamətləndirməsi bu istiqamətdə dövlət siyasətini layiqincə yerinə yetirdiyini sübut edir.

Ədəbiyyatı hər zaman yüksək səviyyədə təbliğ edən "Şərq qapısı"nda 2006-cı ildən başlayaraq bu proses daha da sürətlənmiş, həmin ilin 4 avqust tarixindən etibarən ayda iki dəfə oxucuların görüşünə gələn "Gəmiqaya" əlavəsi bu məqsədlə dərc olunmuşdur. 2006-cı ildən günümüzədək poeziya başlığı altında təqdim olunan şeir və poemalar qəzetdə daha geniş səpkidə yer almış, müxtəlif mövzular bədii sözün köməyilə oxuculara təqdim olunmuşdur. Z.Vedili, İ.Yusifoğlu, B.Təhməz, X.Kərimli, A.Əsədoğlu, A.Yadigar, V.Məmmədov, S.Əsgərli, Ə.Ülvi, R.Babayev, T.Xəyal, Ə.Kərimoğlu, Q.Qərib, S.İbrahimoğlu, Ə.Zeynalov, V.Qaraxan, S.Xudiyev, E.Həbib, T.Bəylər, Y.Zaman, H.Bağıroğlu, E.Sadıqoğlu, H.Eyvazlı, İ.Fərəməzoğlu, M.Təmkin, Ə.Göydağlı, R.Qaybalıyeva, K.Ağayeva, Q.Həsənov, M.Qasımzadə, A.Aqil, İ.Rüstəmov, H.Nikbin, N.Əlincə, E.-Yurdoğlu, Q.Alışarlı, E.Orucova, S.Xanəliyev, V.Vaqifqızı, K.Nəsrin, N.Hacılı şeir və poemaları ilə qəzetdə fəal şəkildə iştirak edən müəlliflərdəndir. Qəzetdə Vətən mövzusuna xüsusi diqqət yetirilmiş, bir çox şeir və poema bu istiqamətdə qələmə alınmışdır. "Bu yurdun tayı yox ulu cahanda", "Vətən torpağına gəldi qardaşım...", "Zəfər qılıncların tiyəsindədir", "Vətən çağırır", "Vətən payım", "Yurdumun", "Yurdumdur, elimdir Vətənim mənim", "Qoruyaq vətəni...", "Azərbaycan", "Vətənim heyrətə gətirsin məni", başqa nümunələrdə Vətən sevgisi, yurdumuzun hər qarışına olan məhəbbət ən səmimi duyğularla təqdim olunmuşdur. Vətən mövzusunda qəzetdə yer alan nümunələr təkcə tərənnüm xarakteri daşımır. Tarixən xalqımızın məruz qaldığı soyqırımlar, faciələr, bu yolda igidliklə vuruşan qəhrəmanlarımız və ən nəhayət, otuz illik həsrətdən sonra torpaqlarımızın düşmən işğalından azad edilməsi ilə bağlı məqamlar muxtar respublikamızda yaşayan şair və yazıçıların yaradıcılığında da yer almışdır. Q.Qəribin "Bu, qisasdı", T.Qəbulun "Müqəddəs andımız-Şəhidlərimiz", Ə.Ülvinin "Əbədi yaşayanlar", Q.Quliyevin "Qalx savaşa, Vətən oğlu", E.Sadıqoğlunun "Haqqımız yox dincliyə...", İ.Yusifoğlunun "Dünyanı qoruyaq soyqırımlardan", E.Həbibin "Görsün hamı bu birliyi", "Ürəyimdə bir nisgil var", R.Hüseynovun "Əsgər haqqında ballada", A.Yadigarın "Döyüş havaları çaldırmalıyıq", "Yaşa, var ol, yüz yaşa, Ali Baş Komandanım!" şeirləri və "Qisas qiyamətə qalmaz" poeması gənclərin vətənpərvərlik ruhunda tərbiyələnməsində əhəmiyyətli rola malikdir. İllər boyu erməni cəlladlarının xalqımıza qarşı törətdiyi vəhşiliklər, bu qisasın bir gün mütləq alınacağına inam bu şeirlərin əsas leytmotivini təşkil edir.

*(Davamı 3-cü səhifədə)*

# MÜSTƏQİLLİK DÖVRÜ NAXÇIVAN ƏDƏBİ MÜHİTİNİN İNKİŞAFINDA "ŞƏRQ QAPISI" QƏZETİNİN ROLU

*(Əvvəli 2-ci səhifədə)*

Xocalı soyqırımının dəhşətləri əsasında şair Asim Yadigarın qələmə aldığı və qəzetin 2007-ci il 31 mart tarixində dərc etdirdiyi "Qisas qiyamətə qalmaz" poeması da söyləndiyi kimi:

...Yüz-yüz başlar kəsdiniz  
Xocalıda o gün siz.  
Amma bir gün siz bunun  
Əvəzin görəcəksiz.

13 il sonra qəzetin 9 oktyabr 2020-ci il nömrəsində yenə Asim Yadigarın "Yaşa, var ol, yüz yaşa, Ali Baş Komandanım!" şeirində torpaqlarının bir hissəsi qəddar düşməndən azad olunan, sevinci yerə, göyə sığışmayan xalqımızın qələbə səsi, zəfər sədası eşidilir:

Yerə, göyə sığışmır  
Bu gün sevincim mənim,  
Papağın qoyub qaçır  
Qarabağdan düşmənim,  
Qədəmimə sevinir dağım, düzüm, çəmənim  
Üzür sevinc gölündə anam Azərbaycanım,  
Yaşa, var ol, yüz yaşa,  
Ali Baş Komandanım!

Qəzetdə doğma Naxçıvanımıza həsr olunan şeir və poemalar daha geniş yer almış, bu diyarın gözəllikləri, şərəfli tarixi, keçdiyi inkişaf yolu poetik dillə oxuculara təqdim olunmuşdur. Z.Vedilinin "Gözəlliyə doğru gedir Naxçıvan...", "Naxçıvanım", "Duz dağı", İ.Yusifoğlunun "Bu nəğməm sənədir, doğma Naxçıvan", "Naxçıvan gözəlinə", "Mənim doğma Naxçıvanım", "Bütün istəyinə çatıb Naxçıvan", A.Əsədoğlunun "Bu torpaqdan ilham alım...", B.Təhməzin "Bir üreyim var", "Naxçıvanın gözəlləri", "Naxçıvanam-Araz üstə Çənlibeləm", "Ordubadı gəzərkən", "Nuh yurdusan, dayanmısan zirvədə", "Cənnət Ordubad", "Həm qoca, həm cavan, ulu Naxçıvan", "Naxçıvan şəhərlərin gözüdü gözlərimdə", "Nuh Peyğəmbər ocağısan, Naxçıvan" kimi şeir və poemaları Naxçıvana olan sevgi və məhəbbəti ən saf duyğularla ifadə edən mükəmməl ədəbi nümunələrdəndir. Naxçıvanda olan inkişaf, bütün sahələrdə olan dirçəliş sözügedən şeir və poemaların hər birinin əsas mövzusudur.

Yarandığı gündən etibarən ədəbi qüvvələrin əsas yaradıcılıq tribunalına çevrilən "Şərq qapısı" qəzetində Naxçıvan ədəbi mühitinin dolğun və aydın mənzərəsini yaratmağa kömək edən, Naxçıvanda ədəbi prosesə elmi dəyər verən tənqidi yazılar da mühüm yer tutur. Bu yazılar içərisində yazıçı-jurnalist Akif Axundovun professor Sevindik Vəliyevlə birlikdə apardıqları tədqiqatların nəticələrini əks etdirən silsilə yazıları xüsusilə qeyd etmək lazımdır. "Naxçıvan ədəbi mühiti" başlığı ilə dərc olunan yazılarda Naxçıvan ədəbi mühiti mərhələlərlə tədqiq olunmuş, bu regionda yaşayıb-yaradan yazıçı və şairlərin fəaliyyətlərinin əhəmiyyətli və gizli qalmış məqamları araşdırılaraq oxuculara təqdim olunmuşdur. XII əsrdən başlayaraq bu günümüzədək böyük bir dövrün ədəbi mənzərəsini yaradan silsilə yazıların ilki qəzetin 2007-ci il 19 iyun nömrəsində dərc olunan "İlk sənət cığırları" sərlövhəsi ilə təqdim olunmuşdur. Bu yazının ardınca "XIV-XIII əsrlərin söz-sənət adamları" məqaləsində bu ənənə davam etdirilərək, həmin dövrün ədəbi mənzərəsi Fəzlullah Nəimi, Abdulla Naxçıvani, Baba Nemətullah Naxçıvani, Mirzə Sadiq Ordubadi, Əbdürrəzzaq bəy Dünbülü, Kosacanlı Allahverdi kimi simaların yaradıcılıqlarının təhlili əsasında təqdim olunmuşdur. XIX yüzilliyin Azərbaycan ədəbiyyatının təzə, orijinal ədəbi forma və janrlarla zəngin bir dövrü kimi dəyərləndirildiyi "XIX əsr poeziyası" yazısında isə poeziyanın aparıcı mövqeyi və bu dövrdə yaşayıb-yaradan şairlər haqqında məlumat verilmiş, Naxçıvan torpağının yetirmələri olan Heyran xanım, Qonçabəyim, Hacı ağa Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi, Qüdsi Vənəndi, Şıxəli Naib, Usta Zeynal Nəqqaş, Molla Hüseyn Bikəs, Məhəmməd bəy Aşıq və başqalarının öz şeirləri ilə söz dünyamızın daha da zənginləşməsindəki oynadıqları rol əsərlərdən təqdim olunan nümunələr əsasında geniş şərh edilmişdir. Bu istiqamətdə qələmə alınan digər yazıda isə XX yüzilliyin ilk iki onilliyinin poeziya və nəsr nümayəndələri haqqında məlumat verilmiş, Naxçıvan ədəbi mühitinin yetirdiyi Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Nadim Naxçıvani, Eynəlibəy Sultanov, Əli Səbri və başqalarının yaradıcılıqlarının təhlili əsasında bu dövr Naxçıvan ədəbi mühitinin intibah dövrü kimi dəyərləndirilmişdir. "Naxçıvan ədəbi mühiti: 1921-1930-cu illər", "Naxçıvan ədəbi mühiti: 1931-1940-cı illər", "1941-1945-ci illərin poeziyası və nəsri", "Naxçıvan ədəbi mühiti: 1946-1960-cı illər", "Naxçıvan ədəbi mühiti: 1961-1970-ci illər", "Naxçıvan ədəbi mühiti: 1971-1980-cı illər", "Naxçıvan ədəbi mühiti: 1981-1990-cı illər", "Naxçıvan ədəbi mühiti: 1991-2000-ci illər", "Naxçıvan ədəbi mühiti: Müasir dövr yazarları", "Naxçıvan ədəbi mühiti: Yeni nəsil və çağdaş dövrün poeziyası haqqında bir neçə söz" kimi yazılarda uzun illər ərzində Naxçıvan ədəbi mühitində yazıb-yaradan simaların yaradıcılıqları elmi təhlilə cəlb olunmuşdur. A.Axundovun "Nehrəmin söz-sənət adamları", "Naxçıvan mütəfəkkirləri", "Naxçıvan ədəbi mühitində qəzəl janrı", S.Vəliyevin "Şahbuzun el şairləri" kimi yazılarında da hər iki müəllifin ədəbi mühitlə bağlı elmi təhlilləri olduqca əhəmiyyətlidir.

Bundan başqa İ.Həbibbəylinin "Naxçıvanda ədəbi-mədəni mühit: tarixi proses və müasir inkişaf istiqamətləri", H.Həşimlinin "Ədəbi mühitin inkişafı üçün Naxçıvanda hər cür şərait var", "Naxçıvanlı yazıçılar və "Yeni füyuzat" jurnalı", İ.Yusifoğlunun "Görən doğrudanmı oxunmur şeir, yaxud poeziya haqqında düşüncələr", "Şərur ədəbi birliyi" Şərurda pöhrələnən şeir-sənət qönçələrinin yaradıcılıq dərnəyidir", "Şərur ədəbi birliyi" oğuz yurdunda ədəbi mühitin formalaşması mərhələsidir", "Gözəlləşən Naxçıvan", A.Yadigarın "Ədəbiyyatımızın bayramı", X.Kərimlinin "Tənqidçilərimiz öz abırlarına qısılıblar", Ə.Əzimlinin

"Sözün təqlidi, yaxud ədəbi mühitdə hərənin bir arşını", "Hər kəsin söylədiyi onun özünə bir güzgüdür", "Şair, yoxsa mütəşair?", "İndiki ədəbi hava qəlbi isitmir", R.Hüseynovun "Ədəbi mühitimiz bu gün", A.Behbudovanın "Naxçıvan ədəbi mühiti və Qanlı Yanvar", N.Əliyevanın "Naxçıvan ədəbi mühiti milli müstəqillik ideyalarının və vətənpərvərlik ruhunun təbliğatçısı kimi", Ş.Həsənəliyevanın "Ədəbi mühitimizdə niyə tənqid yoxdur?", "Çağdaş dövrdə Naxçıvanın qadın şairləri", E.Yurdoğlunun "Naxçıvanda ədəbi tənqid niyə yoxdur?", "Ədəbi tənqid ədəbi mühitin inkişafına xidmət edir", Q.Qəribin "Naxçıvanda çağdaş ədəbiyyat və ya ədəbiyyatda çağdaş Naxçıvan", S.Məmmədovun "Söz qüdrətdən düşüb, yoxsa sözün qüdrətini duyanlar azalıb?", "Ədəbi mühitə qayğı artır", A.Orucovanın "Tarixi abidələrimizin müasir poeziyada tərənnümü", M.Məmmədovanın "Ədəbiyyatımızda tənqid yoxdursa...", M.Məmmədoğlunun "Baxdıqca doymuram gözəlliyindən, yaxud naxçıvanlı qadın yazıçıların yaradıcılığında vətən mövzusu", L.Zeynalovanın "Naxçıvanda gedən quruculuq tədbirlərini şairlərimiz necə tərənnüm edirlər?", F.Kazımovanın "Naxçıvan şairləri Böyük Vətən müharibəsi illərində", R.Babayevin "Artıran söz qədrini..." və başqa yazılarda Naxçıvan ədəbi mühiti, muxtar respublikada ədəbi mühitin dəyərləndirilməsində tənqidin rolu, inkişaf istiqamətləri, qarşıda duran vəzifələr haqqında geniş təhlillər aparılmışdır. "Şərq qapısı" qəzetində Azərbaycan ədəbiyyatının klassikləri, görkəmli nümayəndələri haqqında çap olunan yazılar qəzetin dövrünün ədəbiyyat məktəbi olması fikrini bir daha təsdiq edir. S.Vurğun, S.Rüstəmin 100 illik yubileyləri bağlı "Yaşayırsan ürəklərdə", "Bir mələk çiynimə qondu o axşam...", "Bir həyat şairi, bir yer övladı", şair-tərcüməçi Şamil Zaman haqqında "70 yaşın işığında", M.Şəhriyardan bəhs edən "Ustad M.Şəhriyarın "Heydərbabaya salam" poemasında bəşəri duyğular", dahi H.Cavidin yaradıcılığına həsr olunan "Hüseyn Cavid yaradıcılığında gözəllik", "Cavid şeiri, Cavid şeiriyyəti", "Şair, sən üzüldükcə və öldükcə yaşarsın", "Həqiqət şairi Cavid", "Ölüm var ki, həyat qədər dəyərli...", böyük Nizaminin müxtəlif illərdəki yubileyləri ilə bağlı "Söz Allahı-Nizami", "Böyük Azərbaycan şairi Nizami Gəncəvi", C.Məmmədquluzadə yaradıcılığına işıq salan "Mirzə Cəlil yanğısı", "Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı", "Mirzə Cəlil haqqında naməlum kinodram", A.İldırım haqqında "Allahım, mən neçin şair doğuldum?!", "Oyanmazmı kor olası baxtım oy...", "Bu ayrılıq mənə ölümdən betər", M.Müşfiqdən bəhs edən "Mənim könlüm deyir ki...", "Şair ömrü yanar şama bənzəyir", M.Araz yaradıcılığına həsr olunan "Vətən şairi", "Düşünən və düşündürən şair", "Məmməd Araz yaradıcılığında Azərbaycançılıq" və başqa yazılar, həmçinin İ.Nəsimi, M.S.Ordubadi, Ə.Qəmküsar, M.Cəlal, M.T.Sidqi, A.Ələsgər, M.P.Vaqif, ədəbiyyatşünas alimlər A.-Zamanov, Ə.Şərif haqqında müxtəlif illərdə çoxsaylı məqalələr dərc olunan qəzetdə bu ənənə günümüzdə də uğurla davam etdirilir.




Yekun olaraq belə qənaətə gəlmək olar ki, "Şərq qapısı" qəzeti müstəqillik illərində də Naxçıvan ədəbi mühitinin tanıdılmasında və təbliğində əhəmiyyətli rol oynamaqdadır. Burada dərc olunan ədəbi nümunələr Naxçıvanın ədəbi mühiti haqqında geniş və aydın təsəvvür yaradır. Qəzetdə ədəbiyyat səhifələrinin mütəmadi olaraq verilməsi Naxçıvan ədəbi mühitinin nümayəndələrinin qəzetdə daha fəal şəkildə iştirakına şərait yaradır. Qəzetin səhifələrində yer alan poeziya, nəsr, publisistika, ədəbi tənqid istiqamətində dərc olunan materiallar Naxçıvan ədəbi mühitinin öyrənilməsi və tədqiqində çox mühüm əhəmiyyətə malikdir. Bu mənada "Şərq qapısı" qəzetini həm də bütün dövrlərin ədəbiyyat məktəbi adlandırmaq olar.

***AYGÜN ORUCOVA,***  
***AMEA Naxçıvan Bölməsi***  
***filologiya üzrə fəlsəfə doktoru,***  
***dosent***

***SAHAB ƏLİYEVA,***  
***AMEA Naxçıvan Bölməsi***  
***Elmi Kitabxanasının direktoru***